


# "Kəlbəcər"in adını İlham Əliyev təklif edib

## Yeni tanker tezliklə dünyanın hövzələrində fəaliyyətə başlayacaq

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"nin tankerlərinin sırasına "Kəlbəcər" də qoşuldu. "Prezident Heydər Əliyev", "Şuşa", "Laçın" adlı tankerlərimiz də var. Yeni tanker isə Prezident İlham Əliyevin təşəbbüsü ilə "Kəlbəcər" adlandırılıb. Bu nəhəng neftdaşıyan gəmilərimiz həmin adları qürur və şərəflə daşıyırlar.**

Əvvəla xatırladaq ki, tanker xam neftin və ya emaldan keçmiş neft məhsullarının daşınmasında istifadə olunan gəmi növüdür. Tankerlər xarici görünüşünə görə bəlkə də digər, məsələn, yeyinti məhsulları daşıyan gəmilərə bənzəyirlər. Lakin bu, yalnız ilk baxışdan belədir. Çünki neft daşıyan gəmilər daxili tərtibat və quruluşları ilə tamamilə fərqlidirlər. Bir tarixi faktı da qeyd edək: dünyada ilk neft tankeri məhz Azərbaycanda istismara verilmişdir. Belə ki, 1879-cu ildə Nobel qardaşlarının Bakıdakı neft mədənlərindən çıxarılan xam neftin daşınması üçün sifariş etdikləri "Zərdüşt" gəmisi dünyanın ilk neft tankeri hesab olunur.

*Ardı 6-cı səh.*

# “Kəlbəcər”in adını İlham Əliyev təklif edib

## Yeni tanker tezliklə dünyanın hövzələrində fəaliyyətə başlayacaq

*Əvvəli 1-ci səh.*

Neft diyarı olan, qlobal neft və ixrac layihələri həyata keçirən ölkəmizdə tanker təsərrüfatının genişləndirilməsi, günün tələbləri baxımından daha da zənginləşdirilməsi qanunauyğun haldır. Məlum olduğu kimi, Prezident İlham Əliyev cari il sentyabrın 10-da daha bir tankerin - Bakı Gəmiqayırma Zavodunda “Kəlbəcər”in istismara verilməsi mərasimində iştirak edib. Bu neftdaşıyan tankerin tikintisinə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə zavodda 2 il əvvəl başlanmışdı.

Son illər ölkədə nəqliyyat-logistika və tranzit yükdaşımaları sahəsinin inkişafı istiqamətində də geniş islahatlar və irimiqyaslı layihələr həyata keçirilir. Bu tədbirlər nəticəsində həmin sahənin önəmli qollarından olan gəmiçilikdə də müsbət nəticələr qazanılıb. Həm də bu gün Azərbaycan strateji əhəmiyyətə malik məhsulları artıq özü istehsal edir. Bakı Gəmiqayırma Zavodunda gəmilərin istehsalı, o cümlədən “Kəlbəcər” neftdaşıyan tankerinin inşa olunaraq istismara verilməsi bunun əyani təzahürüdür. Bu həmçinin gəmiçiliyin fəaliyyətinin şaxələndirilməsi ilə bağlı görülən işlərin həcmini aydın şəkildə əks etdirir. Bütün bunlar Azərbaycanda icra olunan böyük sosial-iqtisadi infrastruktur layihələrinin ardıcıl şəkildə davam etməsini və əlbəttə, ölkənin iqtisadi qüdrətini göstərir.

“Kəlbəcər” neftdaşıyan tankerinin inşası da məhz yeni gəmilərin tikintisi və donanmaların yenilənməsi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərin tərkib hissəsidir. Gəmiçiliyin Strateji İnkişaf Planına uyğun olaraq son illər ərzində 18 gəmi istismara verilib. Bu da ölkəmizin Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılmasında, Azərbaycan ərazisindən artan tranzit yükdaşımalarına yaranan tələbatın ödənilməsində və dənizdə neft-qaz layihələrinin uğurla icrasında mühüm rol oynayır.

“Kəlbəcər” tankerinin uzunluğu 141, eni 16,9 metrdir, daimi heyəti isə 15 nəfərdən ibarətdir. Dedveyti, yəni yükgötürmə qabiliyyəti yüksək olan tankerdə dünyanın aparıcı şirkətlərinin istehsal etdiyi avadanlıqlar quraşdırılıb. Tankerin texniki göstəriciləri onun maksimum yük götürməklə Xəzər hövzəsində nisbətən dayaz limanlara daxil olmasına və Xəzərdən kənara yük daşımasına imkan yaradır.

Yeni tanker Bakı Gəmiqayırma Zavodunda iki il əvvəl tikintisi başa çatan və hazırda Qara dəniz-Aralıq dənizi hövzələrində üzən “Laçın” tankeri ilə eyni tipə malikdir. Xatırladaq ki, “Laçın” tankeri Britaniya Kral Dəniz Mühəndisləri Cəmiyyətinin (Royal Institution of Naval Architects, RINA) versiyasına görə, 2019-cu ildə dünyanın ən yaxşı 50 mülki gəmisi sırasına daxil olub.

Hazırda Qara dəniz və Aralıq dənizi hövzələrində Azərbaycan bayrağı altında 8-i quru yük gəmisi və 3-ü tanker olmaqla, 11 gəmi üzür. Əhəmiyyətli faktlardan biri də bu gəmilərin öz yerli mütəxəssislərimiz tərəfindən idarə olunmasıdır. Qeyd edək ki, cari ilin sonunadək “Prezident Heydər Əliyev”, “Kəlbəcər” və “Şuşa” tankerlərinin də Xəzərdən kənarda, o cümlədən Baltik və Şimal dənizlərinə çıxışı təmin ediləcək.

Ümumiyyətlə, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin tanker donanması Xəzər hövzəsində aparıcı mövqeyə malikdir. Yükdaşımalarda xüsusi çəkisini saxlamaq üçün donanmanın yeni gəmilərlə zənginləşməsinə də xüsusi əhəmiyyət verilir. Yaxın gələcəkdə gəmiqayırmanın son nailiyyətləri əsasında inşa olunan yeni tankerlər hesabına donanma daha da gücləndiriləcək. Eləcə də quru yük, konteyner daşıyan, kran, yanğınsöndürən, yedək-təchizat, təchizat və nəqliyyat gəmilərinin sayı artacaq.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

Azərbaycan. - 202.- 15 sentyabr.- S. 1; 6.